*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

7 iyun 2024-cü il №18 (9076) www.muallim.edu.az muallim@media.edu.az


**Dövlət dəstəyi, təhsildə əlçatanlıq**

**Bu imkandan yararlanan kimlərdir?**

# TÜRK DÜNYASI ŞUŞADA

## *Mədəniyyət paytaxtında dostluğun, qardaşlığın, birliyin təntənəsi*




**Emin ƏMRULLAYEV:** "Türk dövlətləri arasında olan mübadilələr həm müəllim, həm şagird mübadiləsi, həm də təhsil sahəsində olan islahatlar çərçivəsində aparılan ortaq türk tarixi, ortaq türk ədəbiyyatı, ortaq türk coğrafiyası kimi fənlərin daha da geniş miqyasda tədrisi məsələsidir... İnandığımız bundan ibarətdir ki, bu coğrafiyada türk xalqları, türk universitetləri, dövlətləri arasında bu əməkdaşlıq birmənalı olaraq gələcək nəsillərimizin eyni kimlik, eyni oxşar mədəni və eyni soy-kök olan xalqların əməkdaşlığı çərçivəsində davam edəcək".




**Erol OZVAR:** "Təkliflərin başında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin akademik məlumatlar bankının qurulması durur. Bu təklifimiz türk dünyasına aid ali təhsil qurumlarının məlumatlarının ortaq sahədə toplanmasını nəzərdə tutur. Beləliklə də üzv ölkələr universitetlər haqqında konkret, dürüst məlumatlar əldə edə biləcəklər. İkincisi, biz Ali Təhsil Şurası və digər ölkələrin təhsil nazirləri olaraq universitetlərin balanslı və tanıma prosedurları da daxil olmaqla tənzimləyici bir qurumunun və ya şöbənin fəaliyyətə keçməsini də təklif edirik. Tələbə hərəkətliliyində ən çox qarşılaşdığımız problemlərin başında isə tanınma və uyğunluq problemi gəlir".



**Konqratbay ŞARİPOV:** "Səfər çərçivəsində biz məktəbdə yaradılmış şəraitlə tanış olmuşuq. Məktəbin müəllim və şagird kollektivi ilə görüşdük. Və mən çox şadam ki, məktəbi bitirən azərbaycanlı uşaqlarımız gələcəkdə Mirzə Uluqbəy adına məktəbin attestatını daşıyacaqlar. Gələcəkdə birgə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Bu məktəbi bitirən uşaqlar da bizim uşaqlarımız sayılır. Ona görə də onlar Özbəkistanın ali təhsil müəssisələrinə imtahansız qəbul olunacaqlar. O bildirib ki, həmçinin bu məktəbdə Özbəkistandan da müəllimlər də gəlib dərs deyəcəklər".



## "AZƏRBAYCANIN qəlbimdə ayrıca yeri var"

Çox zəkalı insanlar var, amma uğurlu olmadılar. Çünki lazımi işləri görmədilər. Bu baxımdan "mən zəkalıyam" deyən şagirdlərinizə bunu deyəcəksiniz. Çalışmaqdan başqa çarə yoxdur. Mən işləməkdən başqa heç nə etmədim. İdman etməyi məsləhət görürəm, amma uğur qazanmaq istəyirsinizsə, məşq etməkdən başqa çarəniz yoxdur. Aspirantlarım var. Deyirəm: "Mən bu yaşımda işləyirəm, sən də mənim kimi işləməyəcəksənsə, müəllim olmağı dayandır".

Bax səh. 4

## "ŞUŞA TÜRK DÖVLƏTLƏRİ BİRLİYİNİN MƏDƏNİYYƏT İNCİSİDİR"




## BDU dünyanın ən yaxşı universitetlərinin reytinqində top-1000-də yer alıb

**Ali təhsil sahəsində beynəlxalq analitik agentlik "QS Quacquarelli Symonds" dünyanın ən yaxşı universitetlərinin reytinqini açıqlayıb.**

Azərbaycanın 3 universiteti sözügedən qlobal reytinqdə təmsil olunub və hər 3-nün mövqeyində ötən ilə nisbətən irəliləyiş müşahidə edilib.

Ölkə üzrə ən yüksək nəticə əldə etmiş Bakı Dövlət Universiteti dünyanın ən yaxşı 951-1000 universitetinin siyahısına daxil olub. Son 5 ildə ilk dəfə Azərbaycan universitetləri arasında Bakı Dövlət Universiteti müvafiq reytinqdə top-1000-də yenidən təmsil olunur.

1001-1200 diapazonunda reytinqə daxil olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin də mövqeyi ötən ilin nəticələrinə nisbətən əhəmiyyətli dərəcədə irəliləyib və 1201-1400 diapazonundan 1001-1200-ə yüksəlib.

Azərbaycan Dövlət İqtisad Universiteti də reytinqə 1001-1200 diapazonu üzrə daxil olub.

QS dünya universitetlərinin reytinqində nəzərə alınan 9 indikatordan 4-ü üzrə Bakı Dövlət Universiteti ("Müəllim-tələbə nisbəti", "Akademik heyət üzrə istinad sayı", "Beynəlxalq tədqiqat indeksi" və "Məşğulluq nəticələri"), 4-ü üzrə Azərbaycan Dövlət İqtisad Universiteti ("Akademik nüfuz", "İşəgötürənlər arasında nüfuz", "Əcnəbi tələbə payı" və "Davamlılıq") və 1-i üzrə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (Əcnəbi müəllim payı) ölkədə birinci sıradadır. "Məşğulluq nəticələri" indikatoru üzrə hər 3 universitet top-500-də təmsil olunur, Bakı Dövlət Universiteti isə müvafiq indikator üzrə dünyada 271-ci yerdədir.

Qeyd edək ki, QS 2025 dünya universitetlərinin reytinqində Cənubi Qafqaz regionu üzrə Azərbaycan ən çox sayda universitetlə təmsil olunur.

## SERTİFİKATLAŞDIRMA – DAVAMLI İNKİŞAF

**Bu gün ölkədə sertifikatlaşdırmadan yüksək balla keçən müəllimin orta aylıq əməkhaqqısı 1300 manatdır**

**Bu il ilk dəfə Naxçıvanda keçiriləcək sertifikatlaşdırmada 367 müəllim iştirak edəcək**

Bax səh. 6

# TÜRK DÜNYASI ŞUŞADA

## *Mədəniyyət paytaxtında dostluğun, qardaşlığın, birliyin təntənəsi*

### Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin VIII İclası keçirilib

**İyunun 1-də Şuşa şəhərində Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin VIII İclası keçirilib.**

Açılış nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev qonaqları salamlayaraq TDT-nin qısa müddət ərzində əldə etdiyi uğurların təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Elm və Təhsil Nazirliyinin bu vacib proseslərə töhfə verməkdən məmnun olduğunu söyləyən Emin Əmrullayev türkdilli dövlətlər arasında dayanıqlı və sağlam əməkdaşlığın bünövrəsinin gənclər olduğunu vurğulayıb. Nazir qeyd edib ki, bu baxımdan TDT çərçivəsində ümumi təhsil müəssisələri şagirdlərinin mübadiləsi məktəblilərimizin ortaq tarix, mədəniyyət və adət-ənənələri tanımasına şərait yaradır.

TDT-yə üzv dövlətlərlə həm təşkilat çərçivəsində, həm də ikitərəfli əməkdaşlıq əlaqələrinin bu gün də uğurla davam etdirildiyini bildirən Emin Əmrullayev işğaldan azad olunmuş ərazilərdə qardaş ölkələrin dəstəyi ilə tikilən məktəbləri, həmçinin görülən digər işləri ölkələrimiz arasında dostluq və qardaşlığın növbəti rəmzi kimi qiymətləndirib.

Nazir çıxışının yekununda TDT-yə üzv və müşahidəçi ölkələrlə ikitərəfli əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində qarşıda duran hədəflərə toxunub.

Daha sonra digər qonaqlar çıxış edərək elm və təhsil sahəsində əməkdaşlığın gücləndirilməsi məsələsindən söz açıblar.

Çıxışlardan sonra iclasın gündəliyində olan məsələlər müzakirə edilib.




### Türk Akademiyası ilə elm və təhsil sahəsində əməkdaşlıq

**İyunun 1-də Şuşa şəhərində Türk Akademiyasının Elmi Şurasının VII İclası keçirilib.**

Açılış nitqi ilə çıxış edən Türk Akademiyasının prezidenti Şahin Mustafayev iclasın Şuşada keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Şahin Mustafayev bildirib ki, sözügedən iclas elmi əməkdaşlığın möhkəmləndirilməsi barədə fikir mübadiləsi aparmağa və müvafiq qərarlar qəbul etməyə imkan verir.

Sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev belə bir mötəbər tədbirə ev sahibliyi etməkdən məmnunluğunu bildirib. Türk Akademiyasının məqsədlərindən danışan Emin Əmrullayev akademiya ilə əməkdaşlıq çərçivəsində elm və təhsil sahəsində həyata keçirilən işlərdən bəhs edib.

Daha sonra iclasın gündəliyində duran məsələlər müzakirə olunub.

İclas çərçivəsində Türk Akademiyasının fəaliyyətinə dair hesabat təqdim olunub.




### Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə

**Mayın 31-də Türk Dövlətləri Təşkilatı və Türk Akademiyasına üzv, həmçinin müşahidəçi dövlətlərin nümayəndə heyətləri Şuşa şəhərinə səfər çərçivəsində şəhər 1 nömrəli tam orta məktəbdə yaradılmış şəraitlə tanış olublar.**

Qonaqları məktəbdə yaradılmış müasir şəraitlə tanış edən elm və təhsil naziri Emin Əmrullayev müəssisədə qurulmuş STEAM mərkəzi haqqında məlumat verib.

Bildirilib ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var.



### Nümayəndə heyətləri Füzulidə

**Mayın 31-də Türk Dövlətləri Təşkilatı və Türk Akademiyasına üzv, həmçinin müşahidəçi dövlətlərin nümayəndə heyətləri Füzulidə səfərdə olublar.**

Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə yaradılmış şəraitlə tanış olan qonaqlar məktəbin müəllim və şagird kollektivi ilə görüşüb, məktəblilərin əl işlərindən ibarət rəsm sərgisinə baxış keçiriblər.

Qonaqlar eyni zamanda məktəbdə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilmiş guşə ilə tanış olublar.



### Şuşada beynəlxalq uşaq yaradıcılıq festivalı

İyunun 1-də Şuşa şəhərində Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə türk dövlətlərinin məktəbliləri arasında "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçirilib.

Türkdilli xalqların birliyini əks etdirən festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan 250-yə yaxın məktəbli ölkələrinin musiqi və rəqs mədəniyyətini təqdim edib.

Festivalda həmçinin tanınmış mədəniyyət və incəsənət xadimləri, 150-yə yaxın məktəbli, şəhid övladları tamaşaçı qismində iştirak ediblər.

Qeyd edək ki, beynəlxalq yaradıcılıq festivalının təşkilində məqsəd türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq, qardaşlıq, əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirmək, uşaqlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini tanıtmaqdır.



## Elm və təhsil naziri Türkiyə Maarif vəqfinin prezidenti ilə görüşüb





**İyunun 5-də elm və təhsil naziri Emin Əmrullayev Türkiyə Maarif vəqfinin prezidenti Birol Akgünlə görüşüb.**

Görüş zamanı təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf istiqamətləri müzakirə olunub.

# Nazir müavini Laçında səfərdə olub

### Firudin Qurbanov bir sıra görüşlər keçirib, təhsil müəssisələrində olub, vətəndaşları qəbul edib





Mayın 31-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Laçın rayonuna səfər edib.

Əvvəlcə Laçın şəhərində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədovla görüş keçirilib.

Sonra nazir müavini Laçın şəhəri 2 nömrəli tam orta məktəb, Zabux kənd tam orta məktəbinin inzibati binaları ilə tanış olub, müəssisələrin pedaqoji və şagird kollektivi ilə görüşüb.

Görüş çərçivəsində Firudin Qurbanov işğaldan azad olunmuş ərazilərdə təhsil müəssisələrinin bərpası, təşkili baxımından qarşıda duran hədəf və istiqamətlər barədə danışıb, təhsil işçiləri ilə söhbət aparıb, onların təkliflərini dinləyib.





Nazir müavini, həmçinin Sus kənd tam orta məktəbi və körpələr evi-uşaq bağçasının inzibati binalarına baxış keçirib.

Firudin Qurbanov səfər çərçivəsində vətəndaş qəbulu da keçirib. Vətəndaşların müraciətləri işə qəbul, iş yerinin dəyişdirilməsi, Laçında bağçanın fəaliyyətinin bərpa edilməsi ilə bağlı olub.

Nazir müavini vətəndaşlar tərəfindən edilən hər bir müraciətin araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

**Məlum olduğu kimi, “Təhsil haqqında” Qanuna dəyişiklik edilib. Dəyişiklikdən sonra təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək şəxslərin əhatə dairəsi genişləndirilib.**

# DÖVLƏT DƏSTƏYİ, TƏHSİLDƏ ƏLÇATANLIQ

## Bu imkandan yararlananlar kimlərdir?









**Qeyd edək ki, hazırda 7 status üzrə 21230 nəfər bu imkandan istifadə edir. Ödənişli təhsil alan həmin tələbələrin təhsil xərclərini Elm və Təhsil Nazirliyi dövlət büdcəsinin vəsaiti hesabına qarşılayır.**

### Onlar minnətdardırlar

Onlardan biridir 2002-ci ildə Lerikdə doğulan **Kamran Əlirzayev.** O, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin III kurs tələbəsidir. Doğulan vaxtdan gözündə yaranan problem üzündən o da imtiyazlı kateqoriyadadır. “Əslində səbəbini heç kim bilmir. Əməliyyatla sağalma ehtimalım var, amma mən qorxuram. Bir gün imkan olarsa, xaricdə əməliyyat olunmağı düşünürəm”.

Əlilliyi təsdiqlənib və o, təhsil haqqından azad edilib. Artıq 3 ildir ki, iqtisadiyyat və menecment fakültəsində “Marketinq” ixtisası üzrə dövlət vəsaiti hesabına təhsil alır: “Bir tələbə üçün bu dəstək çox şey ifadə edir. Mənim üçün 2200 manat çox böyük puldur, bu, ailəmin mənə görə sıxıntıya düşməməsi deməkdir, həmin vəsaiti müalicəmə xərcləmək, bunları edərkən heç nə düşünmədən oxuya bilməkdir”.

**Niyaməddin Əliyev** müharibə veteranıdır. Bu kateqoriyadan olmağı imkan verib ki, o da dövlət vəsaiti hesabına oxusun.

Hazırda “Radio avadanlıqları quraşdırıcısı” ixtisası üzrə peşə təhsili alır. 17 nömrəli Bakı Peşə Məktəbinin tələbəsidir: “Hərbi xidmətdə də bu işlə məşğul olmuşdum. İxtisasıma dair hər şeyi bilirdim, dövlətin dəstəyi ilə də təhsil aldım. Bu dəstəyi qiymətləndirirəm və əhəmiyyətini bilirəm. Ümid edirəm ki, sosial statusu olan belə ailələrin övladları bu imkandan yararlanacaqlar”.

**İbrahim Qurbanlının** isə atası I qrup əlildir. Ailəsinin yeganə övladı olan İbrahim “Neft və qaz yataqlarında geoloji və geofiziki işlər” ixtisası üzrə ADNSU nəzdində Bakı Neft-Energetika Kollecində təhsil alır. Evin yeganə gəlir gətirəni I qrup əlil atasıdır. İbrahimin sözlərinə görə, dövlətin güzəşti olmasaydı, o, oxuya bilməyəcəkdi.

İbrahimin atası Elşən Qurbanov Prezidentin müvafiq sərəncamı ilə qanunda edilən dəyişikliyi həyəcanla qarşılayıb: “İbrahim hazırda ödənişli qrupda təhsil alır və bu vəsaiti mən qazi olduğum üçün dövlət ödəyir. Bu, çox böyük dəstəkdir. Amma eyni dəstəyi dövlətdən oğlumun universitetdə oxuması üçün də almaq istəyirəm”.

Qarabağ qazisi oğlu İbrahimin təhsilini davam etdirməsi arzusundadır: “İbrahim kollecdə təhsilini tamamlayıb universitetdə də oxusun, istəyirəm. Bu dəfə də ödənişli təhsil ala bilər. Universitetdə də İbrahim üçün belə bir imkanın olacağını bilmək çox gözəl hissdir. Bu, çox böyük dəstəkdir”.

**İbrahim Əlizadə** Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində “Mühasibat uçotu və audit” ixtisası üzrə təhsil alır: “Prezidentimizin təşəbbüsü ilə təhsil haqqından azad olunanlardan biriyəm. 44 günlük Vətən müharibəsi iştirakçısı kimi ölkə başçımıza minnətdarlığımı bildirirəm. Onun bu qərarı təhsil almağımda mənə böyük dəstək, hətta həyatdakı yükümü də müəyyən mənada çiyinlərimdən götürüb”.

### Bundan sonra başqaları da yararlana biləcək

Beləliklə, təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə əlaqədar mövcud normativ-hüquqi aktların təkmilləşdirilməsi məqsədilə “Təhsil haqqında” Qanunda dəyişiklik edilib.

Yeni dəyişikliyə əsasən, qüvvədə olan və sosial qruplar üçün tətbiq edilən təhsil haqqı imtiyazlarının hər biri “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə olunub. Nəticədə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək şəxslərin əhatə dairəsi genişləndirilib.

Elm və Təhsil Nazirliyi Aparatının əməkdaşı Cabbar Hüseynli “Azərbaycan müəllimi”nə açıqlamasında deyib ki, müxtəlif hüquqi sənədlərdə olan münasibətlər təkmilləşdirilərək, qanunvericilikdə öz əksini tapıb: “Hazırda müvafiq sosial qruplar üçün tətbiq edilən güzəştlərin əhatə dairəsi genişlənib. Məsələn, Dövlət Peşə Təhsili Mərkəzlərinə hazırda tətbiq edilən 5 statusun sayı 6 olub”.

**Bəs, həmin yeni güzəşt tətbiq olunacaq sosial qruplar hansılardır?**

C.Hüseynli bildirib ki, özəl peşə təhsili müəssisələrində oxuyan şəxslərə də bu yuxarıdakı 6 status üzrə imtiyazlar şamil ediləcək. Nəhayət, müvafiq dövlət qurumundan şəhid ailə üzvü kimi vəsiqə alan şəxslər təhsil səviyyəsindən asılı olmayaraq, özəl təhsil müəssisəsində əyani ödənişli əsaslarla oxuyan gənclər də təhsil haqqı ödənişindən azad olunurlar.

Beləliklə, bundan sonra təhsil xərcindən azad olacaq sosial statusların genişlənmiş siyahısını təqdim edirik:

1. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər;
2. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan şəhid ailəsinin üzvləri;
3. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslər;
4. dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər və peşə təhsili müəssisələrində təhsil alan əlilliyi olan şəxslər;
5. dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları;
6. dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşları;
7. dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrində təhsil alan 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər;
8. dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrində təhsil alan köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar.”

**Ruhiyyə DAŞSALAHLI**

# "AZƏRBAYCANIN qəlbimdə ayrıca yeri var"

## Nobel laureatı Aziz Sancarla unudulmaz görüş

Dünyaşöhrətli alim, Türk dünyasının fəxri Aziz Sancar növbəti dəfə Azərbaycana səfər edib. Keçirdiyi çoxsaylı görüşləri, elm və təhsil ictimaiyyəti ilə təmasları, Azərbaycan sevdalısı məşhur alimin elmdə əldə etdiyi uğurlar, səsləndirdiyi fikirlər maraqlı və düşündürücüdür. Və "Elm nə deməkdir?", "Elm, Vətən naminə nə etmək lazımdır?" suallarını cavablayan fikirlərdir.

ABŞ-nin Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin professoru, kimya üzrə Nobel mükafatı laureatı Aziz Sancarın Bakı Dövlət Universitetinin (BDU) müəllim və tələbələri ilə görüşü də bu baxımdan dünya elmində inqilabi kəşflərin müəllifinə dərin hörmət və maraqdan irəli gəldiyi üçün çox əlamətdar idi.

BDU-nun rektoru Elçin Babayev Aziz Sancarın Bakı Dövlət Universitetini ziyarət etməsinin böyük fəxr olduğunu bildirib. Qeyd edib ki, Aziz Sancarın tədqiqatları təkcə elm dünyasında deyil, həm də bütün insanlıq üçün böyük əhəmiyyət kəsb edir. Aziz Sancarın həyatı və fəaliyyəti gənclər üçün böyük bir nümunədir. Bu, onu göstərir ki, təhsildə və elmdə zəhmət dünyanın hər yerində ən yüksək mükafatlara layiq görülə bilər.

Rektor diqqətə çatdırıb ki, Aziz Sancarın elmi irsi və tədqiqatları bəşəriyyətin ən vacib problemlərindən biri olan xərçəngin müalicəsində yeni üfüqlər açır: "Görkəmli alimin tədqiqatları milyonlarla insana ümid, bu sahədə aparılan elmi işlərə yeni bir istiqamət verir. Bugünkü seminarın mövzusu da müasir elmin ən vacib istiqamətinə - DNT-nin bərpası və beyin xərçənginə həsr olunub".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli çıxışında Aziz Sancarın Türk dünyasının təbiət elmləri sahəsində Nobel mükafatına layiq görülən yeganə görkəmli alimi olduğunu diqqətə çatdırıb: "Biokimya kimi çətin bir sahədə bu nüfuzlu mükafatı qazandığına, belə yüksək zirvəni fəth etdiyinə görə minnətdarıq. Alim birinci növbədə öz ölkəsini, Vətənini sevməlidir. Bu mənada Aziz Sancar Türk dünyasının böyük oğlu, əsl vətənpərvərdir. Bizim gənclər Aziz Sancarın həyat və fəaliyyətindən, verdiyi dərslərdən örnək almalıdırlar".

"Can Azərbaycanın qəlbimdə ayrıca yeri var, buraya sevərək gəlirəm", - deyən professor Aziz Sancar özünü həm də Azərbaycan vətəndaşı hesab etdiyini bildirib.

"Biz türk insanı olaraq Qırğızıstandan Kosovoya qədər çox yerdə elm işləmədik. Bütün elmi işlər ingilis dilində yayımlanır. Mən özüm ali təhsilimi Amerikada ingilis dilində aldım. 44 ildir ki, Amerikada çalışıram. İngilis dili beynəlxalq elm dilidir. Alman tədqiqatçı dostlarım da deyirlər ki, öz laboratoriyalarında toplantılarını ingilis dilində aparırlar. Bütün elmi məqalələri ingilis dilindədir. O səbəbdən də, bağışlayın, çıxışımı ingilis dilində edəcəyəm".

Daha sonra professor Aziz Sancar "DNT-nin bərpası və beyin xərçəngi" adlı təqdimatla çıxış edib.

Məlumdur ki, Aziz Sancar 2015-ci ildə DNT-nin təmiri ilə bağlı tədqiqatlarına görə Nobel mükafatına layiq görülüb. O, təqdimatında hələ Nobel mükafatı almamışdan əvvəl DNT-nin xəritəsini hazırladığını bildirib: "Bu xəritənin əsas məqsədi nukleitidlərin hansı ardıcıllıqla bərpa olunmasının öyrənilməsidir. Ümumiyyətlə, tədqiqatların əsas məqsədi insan genomu xəritələnməsidir ki, burada DNT-nin bərpasını, onun kəsilmələrini təqdim etmişik. Ancaq DNT bizim 30 il vaxtımızı aldı ki, biz onu bir-birindən ayıraq, təmizləyək, öyrənək. Sonda biz buna nail olduq. Amma indiyə qədər də bizə məlum olmayan bəzi faktorların DNT-nin bərpa edib-etmədiyini bilmirik".

Son araşdırmalar zamanı isə alim beyin şişlərinin müalicəsinə ümid verəcək EdU molekulu ilə bağlı yeni kəşf edib. Alim çıxışında bu sahədə son tədqiqatları barədə danışıb: "Bunu bir test borusunda sübut etdik, ancaq bunun insan hüceyrəsində baş verdiyini və ya 26-dan çox nukleotidin çıxarıldığını və digər nukleotidlərlə əvəz olunduğunu düşündük. Bunu başa düşmək üçün laboratoriya təcrübələrində EdU adlı tanış bir molekuldan istifadə etdik. Təcrübələrimiz gözlənilməz nəticələr verdi və şoka düşdük. Edu molekulu bütöv DNT üzərində sanki DNT zədələnmiş kimi hərəkət etdi və təmir mexanizmini işə saldı! Biz belə effekt gözləmirdik, biz bunun səbəbini anladıq. EdU-nun xərçəng hüceyrələrini öldürdüyünə dair dəlillər var idi, amma qəribədir ki, heç kim bu nəticələri izləməyib, hətta indi də laboratoriyalardakı minlərlə alim DNT-ni öyrənmək üçün EdU-dan istifadə edir, lakin bu molekul ölümcül təsir göstərir və DNT-yə zərər verir". Alim qeyd edib ki, kimyoterapiya dərmanları beyinə nüfuz edə bilməsə də, EdU molekulunun maneələrdən asanlıqla keçdiyi bilinir.

Aziz Sancar və onun komandasının son tədqiqatları xərçəng araşdırmalarına yeni işıq salıb. Tədqiqatlara əsasən, EdU hüceyrələri bu şəkildə öldürdüyü üçün beyin xərçəngi xəstəsinə verildiyi təqdirdə beyinə girəcək, xərçəng hüceyrələrinin DNT-sinə nüfuz edəcək və neyronları zədələmədən şişi öldürəcəklər.

Aziz Sancar yaxın gələcəkdə tədqiqat nəticələrinin xərçəngin müalicəsində tətbiq ediləcəyinə ümidvar olduğunu bildirib. Alim qeyd edib ki, tədqiqat istiqamətləri günəşin, tütünün, xərçəngə qarşı istifadə olunan dərmanların təsiri ilə yaranan DNT zədələnmələrin bərpası ilə bağlıdır. DNT-nin bərpası, onun genetik quruluşunun qorunmasından bəhs edən qonaq bu sahədə araşdırmaların 40 ildən çoxdur ki, aparıldığını bildirib.

Nobel mükafatçısı Bakıdakı Yunus Emre İnstitutunda da olub. O, Yunus Emre İnstitutunun fəaliyyətindən danışıb, institutun türk dünyası üçün xüsusi əhəmiyyət daşıdığını bildirib. Yunus Emre İnstitutunu dünyanın bir çox yerində görməkdən və varlığını eşitməkdən çox məmnun olduğunu söyləyib, türk mədəniyyətini təmsil etdiyini və gələcək nəsillərə ötürdüyünü qeyd edib. A.Sancar tələbələrlə görüşdə onlara məsləhətlər verib, suallarını cavablandırıb.

### "İddialı bir alim olmaq istəyirsinizsə, çox çalışacaqsınız"

Aziz Sancar qazandığı elmi nailiyyətlərin çox çalışması ilə əlaqəli olduğunu ifadə edərək, öz uğurlarının sirrini tələbələrlə bölüşüb:

"Uğur qazanmaq üçün gecə-gündüz dəlicəsinə işləməkdən başqa bir yol varmı? Var. Normal saatlarda çalışmaqla siz həmçinin işinizə diqqət yetirə və futbol oynaya, həm də dostlarınızla kinoya da gedə bilərsiniz. Mən onları etmədim. Yaşlandıqca heyfsləndim. Anam deyirdi: "Oğul, nəfsinin sənin üzərində haqqı var. Nəfsinin istəyi əylənməyin, həyatdan zövq almağındır. Bunu heç vaxt etmirsən. İşin-gücün işləməkdir". Bu üzdən də hər kəsə mənim etdiklərimi tövsiyə etmirəm. Həyatda başqa şeylər də var, buna görə də onları da etməyə çalışın. Ancaq iddialı bir alim olmaq istəyirsinizsə, çox çalışacaqsınız. Bunun başqa çarəsi yoxdur".








### "Mənim üçün örnək atam idi"

Uğurlarının motivasiyasının mənbəyi barədə suala A.Sancar belə cavab verib: "Mənim üçün örnək atam idi. Atam bütün həyatımda tanıdığım ən çalışqan insan idi. Çox kiçik bir qəsəbədə böyümüşəm. Orada bir çox insan işsizliyə görə vaxtlarını kafelərdə keçirirdi. Atam nadir hallarda kafelərə gedirdi. Yay-qış vaxtını bağda, qovaqlıqda keçirirdi. Əsas gəlirimiz qovaqlardan olardı. Qovaqlarda yaşayırdıq. Buna görə həmişə atamdan nümunə götürmüşəm. Atam kafedə poker oynamadı".

### "Çox zəkalı insanlar var, amma uğurlu olmadılar"

Uğurlu olmaq üçün sadəcə zəkanın yetərli olmadığını vurğulayan Sancar, "çox zəkalı insanlar var, amma uğurlu olmadılar. Çünki lazımi işləri görmədilər. Bu baxımdan "mən zəkalıyam" deyən şagirdlərinizə bunu deyəcəksiniz. Çalışmaqdan başqa çarə yoxdur. Mən işləməkdən başqa heç nə etmədim. İdman etməyi məsləhət görürəm, amma uğur qazanmaq istəyirsinizsə, məşq etməkdən başqa çarəniz yoxdur. Aspirantlarım var. Deyirəm: "Mən bu yaşımda işləyirəm, sən də mənim kimi işləməyəcəksənsə, müəllim olmağı dayandır" deyib.

### "Kəşfin verdiyi məmnuniyyəti heç bir şeydə tapa bilməzsiniz"

"Niyə DNT təmiri ilə bağlı araşdırma aparmaq istəyirdiniz? sualına cavab olaraq Nobel laureatı bildirib:

"O, həyatın mahiyyətini təsvir edir, bu baxımdan mənə çox maraqlı gəldi. Bunun üzərində çox çalışmaq üçün mövzular, soruşulacaq suallar var. Buna görə də bu məsələ ilə məşğul oldum və həqiqətən düşündüyüm şeyin doğru olduğu ortaya çıxdı. DNT daim pozulur, kimyəvi və fiziki olduğundan onun təmiri lazımdır. Onu ilk dəfə kəşf edən də mənim müəllimim idi, ancaq onun necə təmir edildiyini bilmirdim. Bu, mənim üçün böyük bir fürsət oldu. İlk dəfə bir enzim fermentinin necə işlədiyini və təmirini mən kəşf etdim və onun verdiyi məmnuniyyəti heç bir şeydə tapa bilməzsiniz. Əlbəttə, mən İbn-Sina deyiləm, amma kəşfim dərsliklərə daxil oldu".

*"Uğur qazanmaq üçün gecə-gündüz dəlicəsinə işləməkdən başqa bir yol varmı?".*

*"Oğul, nəfsinin istəyi əylənməyin, həyatdan zövq almağındır. Bunu heç vaxt etmirsən. İşin-gücün işləməkdir".*

*"Mənim üçün örnək atam idi. Atam bütün həyatımda tanıdığım ən çalışqan insan idi".*

*"Çox zəkalı insanlar var, amma uğurlu olmadılar. Çünki lazımi işləri görmədilər".*

*"Mən bu yaşımda işləyirəm, sən də mənim kimi işləməyəcəksənsə, müəllim olmağı dayandır".*

*"DNT-ni ilk dəfə kəşf edən də mənim müəllimim idi, ancaq onun necə təmir edildiyini bilmirdim".*

*"İlk dəfə bir enzim fermentinin necə işlədiyini və təmirini mən kəşf etdim".*

*"Əlbəttə, mən İbn-Sina deyiləm, amma kəşfim dərsliklərə daxil oldu".*

**Bakıdakı Yunus Əmrə İnstitutunun direktoru Səlçuk Karakılıç bildirib ki, Aziz Sancar Yunus Əmrə və Mehmet Akif tərəfindən xatırlanan örnək insanlardan biridir. O, Sancarın təkcə alim deyil, həm də zəngin mədəniyyət adamı olduğunu ifadə edərək, "Buna görə də Aziz Sancarı gənclərlə bir araya gətiririk, elm, mədəniyyət, tarix, sivilizasiya mövzularında danışır, Türkiyə və Azərbaycanın və daha böyük ailəmiz olan Türk dünyasının elm, mədəniyyət və Türk şüurunun nümunələrini ondan eşidib reallığı görmək istədik" deyib.**

**Tədbirdə iştirakçılara dosent Elşən Bağırzadənin hazırladığı "Aziz Sancardan elm və inkişafa dair aforizmlər" kitabı hədiyyə edilib.**

**Oruc MUSTAFAYEV**

# "İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZDƏ FƏALİYYƏTƏ BAŞLAYACAQ İLK ALİ TƏHSİL OCAĞI OLMASI QARABAĞ UNİVERSİTETİNİN QARŞISINDA CİDDİ VƏZİFƏLƏR QOYUR"

**Qarabağ Universitetinin rektoru Şahin Bayramov AZƏRTAC-a eksklüziv müsahibə verib. Müsahibəni təqdim edirik.**



***Qarabağ Universitetinin rektoru:***
"Başlıca vəzifəmiz Qarabağın dirçəldilməsində və hərtərəfli inkişafın təmin olunmasında fəal iştirak edəcək yüksəkixtisaslı mütəxəssislər hazırlamaqdır"

*– Şahin müəllim, bu günlərdə Qarabağ Universitetinin rektoru vəzifəsinə təyin olunmusunuz. Sizi təbrik edirik və ilkin fikirlərinizi öyrənmək istərdik.*

– Bildiyiniz kimi, Qarabağ Universiteti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli müvafiq Sərəncamına əsasən yaradılıb. Fürsətdən istifadə edərək, göstərdiyi böyük etimada görə dövlətimizin başçısına bir daha sonsuz minnətdarlığımı ifadə edirəm.

Adını çəkdiyim Sərəncamda qeyd edildiyi kimi, Qarabağ Universitetinin yaradılmasında əsas məqsəd regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılmasıdır. Məlumdur ki, Qarabağda ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb. Qürurverici haldır ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitlərinin qəhrəmanlığı sayəsində həm 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsi, həm də 2023-cü ilin sentyabrında keçirilmiş birgünlük lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edilib. Hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq, bərpa və abadlıq işləri həyata keçirilir, Böyük Qayıdışa dair I Dövlət Proqramı uğurla icra edilir. Təbii ki, belə bir şərait Qarabağda və Şərqi Zəngəzurda yüksəkixtisaslı kadr hazırlığına tələbatı artırır, tarixən mövcud olmuş ali təhsil ənənələrinin bərpasını və inkişafını zəruri edir. Məhz bu kontekstdə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağ Universiteti regionda tarixən mövcud olmuş təhsil mühitini çox yaxın vaxtda canlandıracaq.

*– Qarabağ Universitetində ilk tədris ilinə hazırlıq prosesi necə davam edir?*

– Yeni yaradılmış Qarabağ Universitetinin qısa müddət ərzində fəaliyyətə başlaması istiqamətində hazırda Elm və Təhsil Nazirliyinin birbaşa iştirakı ilə sistemli tədbirlər həyata keçirilir. 2024-2025-ci tədris ilindən etibarən Qarabağ Universitetində ali təhsilin bakalavriat səviyyəsində 6 fakültədə 27 ixtisas üzrə kadr hazırlığına start verilməsi nəzərdə tutulub. Cari ilin sentyabrında Qarabağ Universitetində ilk tələbələrimizi qarşılayacağıq. İlk tədris ilində Universitetimizdə 1000 nəfərdən artıq tələbənin təhsil alması gözlənilir. Hazırda Universitetin pedaqoji və inzibati heyətinin formalaşdırılması, tədris infrastrukturunun qurulması, abituriyentlər arasında təbliğat işlərinin aparılması və digər zəruri istiqamətləri əhatə edən kompleks fəaliyyətlər həyata keçirilir.

*– Qarabağ Universitetinin qarşısında hansı vəzifələr qoyulub?*

– Təbii ki, işğaldan azad edilmiş ərazilərimizdə fəaliyyətə başlayacaq ilk ali təhsil ocağı olması Qarabağ Universitetinin qarşısında ciddi vəzifələr qoyur. Başlıca vəzifəmiz Qarabağın dirçəldilməsində, orada həyatın bərpasında və hərtərəfli inkişafın təmin olunmasında fəal iştirak edəcək yüksəkixtisaslı mütəxəssislər hazırlamaqdır. Həmin mütəxəssislərin yüksək nəzəri biliklərə, zəruri praktiki səriştələrə, müasir dünyagörüşünə və innovasiya bacarıqlarına sahib olmaları əsas prioritetlərimizdir. Qeyd olunan vəzifənin yerinə yetirilməsinə imkan verəcək müvafiq tədris məzmununun, təhsil texnologiyalarının və idarəetmə mexanizminin yaradılması istiqamətində lazımi addımların atılmasına start vermişik. Eyni zamanda Qarabağ Universitetinin tədqiqat əsaslı ali təhsil müəssisəsi olması digər mühüm vəzifəmiz kimi müəyyən edilib. Belə ki, ölkəmizin yeni mərhələdəki inkişaf ehtiyaclarına töhfə verən və real tətbiq oluna bilən tədqiqat nəticələrinin əldə olunması, cəmiyyətin və iqtisadiyyatın konkret problemləri üzrə innovativ həllərin hazırlanması əsas məqsədlərimizdəndir. Bu baxımdan, innovativ tədqiqat alətlərinin tətbiqinə imkan verən elmi-tədqiqat mühitinin yaradılması, müasir tədqiqat laboratoriyalarının formalaşdırılması, yerli və xarici qabaqcıl elmi-tədqiqat mərkəzləri ilə faydalı əməkdaşlığın qurulması diqqət mərkəzində saxlanılacaq. Bu çərçivədə, tələbələrdə tədqiqat bacarıqlarının inkişaf etdirilməsi, onların elmi-tədqiqat prosesinə və startap fəaliyyətlərinə aktiv cəlb olunması xüsusi önəm kəsb edəcək.

*– Qarabağ Universitetində hansı ixtisaslar üzrə kadr hazırlığı aparılacaq?*

– İlkin mərhələdə humanitar və sosial elmlər, iqtisadiyyat, mühəndislik, incəsənət, turizm və pedaqoji istiqamətlərdə ali təhsil proqramları həyata keçiriləcək. Növbəti illərdə isə fakültə və ixtisasların sayının artırılması nəzərdə tutulur. Kadr hazırlığı istiqamətində atılacaq önəmli addımlardan biri də Universitetdə 8 ixtisas üzrə SABAH qruplarının yaradılmasıdır. Belə ki, respublikamızın ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin I kursunu müvəffəqiyyətlə bitirmiş tələbələri müvafiq seçim prosesində uğurlu nəticələr göstərməklə, 2024-2025-ci tədris ilindən etibarən Qarabağ Universitetində "Riyaziyyat müəllimliyi", "İbtidai sinif müəllimliyi", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", "Xarici dil müəllimliyi (ingilis dili)", "Maliyyə", "Mühasibat", "Beynəlxalq münasibətlər" və "Hüquqşünaslıq" ixtisasları üzrə təşkil olunacaq SABAH qruplarında təhsillərini davam etdirə biləcəklər.

*– Qarabağ Universitetinin əməkdaşları necə seçilir?*

– Universitetin akademik və inzibati heyətinin formalaşdırılmasına start vermişik. Əsas məqsəd Qarabağ Universitetinin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkilinə imkan verəcək yüksəkixtisaslı peşəkar kadrların seçilməsidir. Qarabağ Universitetində müvafiq vəzifələrin tutulması üzrə elanlar müntəzəm olaraq Elm və Təhsil Nazirliyinin rəsmi saytında və sosial şəbəkə hesablarında geniş ictimaiyyətin diqqətinə çatdırılır. Hər bir elanda müvafiq vəzifə üzrə irəli sürülən tələblər konkret göstərilir. İlkin mərhələdə üç fakültənin dekanı təyin edilib. Elan olunan vakansiyalara böyük maraq var.

*– Qarabağ Universitetinə qəbul olmaq istəyən gənclərə hansı mesajları vermək istərdiniz?*

– Abituriyentlərə, eləcə də müvafiq ixtisaslar üzrə SABAH qruplarına qəbul olmaq istəyən birinci kurs tələbələrinə müraciətimiz odur ki, onlar Qarabağ Universitetini seçməklə, hər şeydən əvvəl, bu ali təhsil müəssisəsinin ilk tələbəsi adını qazanacaqlar. Bununla yanaşı, tələbələrimiz bir çox üstünlüklərdən faydalana biləcəklər. İlk növbədə, vurğulamaq istərdik ki, Universitetimizə tələbə qəbulu yalnız dövlət sifarişi əsasında aparılacaq. Bu, o deməkdir ki, hər bir tələbə təqaüd alacaq. Eyni zamanda universitetimizə yüksəl bal toplayaraq qəbul olunan tələbələrə əlavə təqaüd verilməsi nəzərdə tutulur. Bundan əlavə, bütün tələbələr ödənişsiz mənzil tipli müasir yataqxana ilə təmin ediləcək, hər bir tələbəyə kompüter hədiyyə olunacaq. Digər bir üstünlük olaraq, tələbə və işçi heyətimizin yaradıcı, ekoloji təmiz və təhlükəsiz mühitdə təhsil alması, fəaliyyət göstərməsi və yaşaması üçün bütün imkanların yaradılacağını qeyd edə bilərik. Peşəkar mütəxəssis olmaq, layiqli vətəndaş kimi yetişmək, maraqlı tələbə həyatı yaşamaq, eləcə də Qarabağın dirçəldilməsi və sosial-mədəni həyatının inkişafında pay sahibi olmaq istəyən bütün gəncləri Qarabağ Universitetində gözləyirik. Qarabağ Universiteti ailəsinin üzvü olmaq şərəfli və qürurvericidir.

# QARABAĞ UNİVERSİTETİNDƏ YENİ VAKANSİYALAR

## Qarabağ Universitetində Mühəndislik, İqtisadiyyat və Turizm fakültələri üzrə vakansiya – fakültə dekanı

**İşəgötürən:** "Qarabağ Universiteti" publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qarabağ Universitetinin Nizamnaməsi"nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssislərin və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi və elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə aid edilib.

Universitet fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

**Vəzifə:** fakültə dekanı

**İşin təsviri:**
1. müvafiq ixtisaslar üzrə fakültənin strukturuna dair təkliflərin hazırlanması;
2. müvafiq ixtisaslar üzrə təhsil proqramlarının hazırlanması;
3. müvafiq ixtisaslar üzrə təsdiq edilmiş təhsil proqramlarına uyğun tədris planları və digər tədris sənədlərinin hazırlanmasında iştirak;
4. fakültənin profili əsasında professor-müəllim heyətinə olan tələblərin müəyyən edilməsi və bu tələblərə uyğun şəxslərin işəgötürülmə prosesinin təşkili;
5. fakültə Elmi Şurasına sədrlik;
6. fakültə Elmi Şurasında vəzifələrin tutulması üçün seçkilərin (professor, dosent, baş müəllim, müəllim, assistent) keçirilməsinə rəhbərlik;
7. fakültədə tədris prosesinin, tərbiyə və elmi-tədqiqat işlərinin təşkili;
8. təhsil proqramlarının icrasına rəhbərlik;
9. metodiki işin aparılmasına, elmi konfrans və seminarların təşkilinə nəzarət;
10. tələbə və professor-müəllim heyətinin mobilliyinin təmin olunması;
11. tələbələrin ixtisasları üzrə təcrübə keçməsinin təşkili;
12. təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı tədbirlərin görülməsi;
13. tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi.

***Qeyd:** "Müvafiq ixtisaslar" dedikdə iqtisadiyyat, mühəndislik və turizm ixtisasları başa düşülür.*

**Tələblər:**
- elmi dərəcə və (və ya) elmi ad;
- müvafiqprofilli ali təhsil müəssisələrində pedaqoji və ya rəhbər vəzifələrdə minimum 3 il elmi-pedaqoji təcrübə;
- ən azı B2 səviyyəsində ingilis dili bilikləri (digər xarici dil biliklərinin olması arzuolunandır);
- liderlik və idarəetmə bacarığı;
- innovativ, interaktiv metod və texnologiyalardan istifadə bacarığı;
- tələbəyönümlü və səriştəəsaslı tədris yanaşmalarından istifadə bacarığı;
- yüksək kommunikasiya bacarığı.

**Tələb olunan sənədlər:**
- tərcümeyi-hal;
- ali təhsili təsdiq edən sənədlərin surəti;
- dərc olunmuş elmi məqalələrin siyahısı;
- müşayiətedici məktub (motivasiya, proqramlarla bağlı baxışı – maksimum 500 söz);
- tövsiyə edən şəxslər barədə məlumat (2 nəfər).

***Qeyd:** universitetdə daimi əsaslarla işləyən əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

**Müraciət üçün son tarix:** 15 iyun 2024-cü il

**Elektron poçt ünvanı:** karabakh@edu.gov.az

# SERTİFİKATLAŞDIRMA – DAVAMLI İNKİŞAF

## Bu il yaşı 60-dan yuxarı olan 600-dən çox müəllim könüllü iştirak üçün müraciət edib




**Təhsilverənlərin sertifikatlaşdırılmasına dair məlumatlandırıcı sessiya keçirilib**









**İyunun 6-da STEAM İnnovasiya Mərkəzində təhsilverənlərin sertifikatlaşdırılmasına dair media nümayəndələri üçün məlumatlandırıcı sessiya keçirilib.**

Məlumatlandırıcı sessiyada açılış nitqi ilə çıxış edən Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) direktoru Eşqi Bağırov sertifikatlaşdırmanın əhəmiyyətindən söz açıb. Sertifikatlaşdırma nəticələrinin müəllimlərin əməkhaqqısına təsirindən danışan Eşqi Bağırov qeyd edib ki, 2022-ci ildən etibarən əməkhaqqı sertifikatlaşdırma nəticəsinə uyğun olaraq diferensial formada artırılır. Sertifikatlaşdırmadan uğurla keçən müəllimin orta aylıq əməkhaqqısı 1300 manata qədərdir.

Daha sonra sertifikatlaşdırma prosesi ilə bağlı geniş təqdimatla çıxış edən MÜTDA-nın Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli sertifikatlaşdırmanın üstünlüklərinə toxunub. Nurlan İsmayılbəyli bildirib ki, ən yüksək nəticə göstərmiş müəllimlər tərəfindən mentor kimi məktəbdaxili metodiki xidmət həyata keçirilir. Müəllimlərin sertifikatlaşdırma nəticələrinin gələcəkdə məktəb direktoru və müavini seçimində, o cümlədən qeyri-maddi rəğbətləndirilmə prosesində istifadə olunması nəzərdə tutulur. Müəllimlər sertifikatlaşdırma prosesində toplanılan bal əsasında da iş yerlərini dəyişmək imkanı əldə edirlər.

Təhsil İnstitutunun Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinin direktoru Nəzakət Mehdiyeva sertifikatlaşdırma imtahanlarında istifadə edilən sualların məzmunundan danışıb. Nəzakət Mehdiyeva bildirib ki, uğur qazana bilməyən müəllimlər adətən müsahibə mərhələsində kəsilirlər, çünki onların öyrətmə üsulu qaneedici olmur.

Sessiyanın sonunda media nümayəndələrini maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

- **Bu gün ölkədə sertifikatlaşmadan yüksək balla keçən müəllimin orta aylıq əməkhaqqısı 1300 manatdır. Belə müəllimlərin sayı səkkiz minə yaxındır.**
- **Bu il keçiriləcək sertifikatlaşma imtahanı nəticələrinə görə yeni tədris ilində 20 mindən çox şəxsin müəllim sırasına qoşulması nəzərdə tutulur.**
- **Sertifikatlaşdırma nəticəsi olmayan 65 yaşına çatmış müəllimlərin müqaviləsinin uzadılması ilə bağlı tələblərinə baxılmayacaq. Əgər həmin müəllimlər fəaliyyətlərini davam etdirmək istəyirlərsə, sertifikatlaşdırmada iştirak etməlidirlər.**
- **Sertifikatlaşdırmada könüllü iştirak üçün müraciət edən 60 yaşdan yuxarı müəllimlərin sayı açıqlanıb. Bu il yaşı 60-dan yuxarı olan 600-dən çox müəllim könüllü iştirak üçün müraciət edib.**
- **İlk dəfə cəlb olunacaq müəllimlər üçün sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsi 21, 22, 24 iyun tarixlərində, ötən il uğur qazana bilməyən müəllimlərin təkrar sertifikatlaşdırılması isə 8 iyun tarixində keçiriləcək.**
- **Sertifikatlaşdırma imtahanlarında uğur qazana bilməyən müəllimlərin çoxu orta yaş qrupuna aid olanlardır. Uğur qazana bilməyən müəllimlər adətən müsahibə mərhələsində kəsilir. Çünki onun öyrətmə üsulu qaneedici olmur.**
- **Hamilə qadınlar, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar, uşağını təkbaşına böyüdən kişilər, ilk dəfə işə qəbul olunanlar (3 il müddətində), azı 3 dəfə sertifikatlaşdırmadan keçən müəllimlər sertifikatlaşdırılma prosesindən azaddırlar.**
- **2022-ci ildə sertifikatlaşdırma prosesində uğur qazana bilməyən 2380 müəllim ötən il təlimlərə cəlb olunub və onların 80 faizi təkrar sertifikatlaşdırmada uğur qazanıb. 2023-cü ildə təşkil edilmiş sertifikatlaşdırma prosesində uğur qazana bilməyən 493 nəfər Azərbaycan dili və ədəbiyyat, 5495 nəfər ibtidai sinif müəllimi bu il təlimlərə cəlb olunub.**
- **Bu il ilk dəfə Naxçıvanda baş tutacaq sertifikatlaşdırmada 367 müəllim iştirak edəcək.**

## Fərrux Rüstəmov: Peşəsini bilməyənlərin tədrisdən getməsinin sivil yolu sertifikatlaşdırmadan keçir



**“Təhsilverənlərin sertifikatlaşdırılmasının əsas məqsədi ümumi təhsil müəssisələrində çalışan müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması və peşəyə yararlılığının müəyyənləşdirilməsidir”.**

Bunu “Azərbaycan müəllimi”nə açıqlamasında ADPU-nun ibtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov deyib.

O bildirib ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda ikinci istiqamət - insan resurslarının müasirləşdirilməsinin mühüm komponentlərindən biri məhz təhsilverənlərin peşəkarlığının yüksəldilməsidir.

“Strategiyada müəllim peşəkarlığının inkişafı üçün zəruri stimulların yaradılması müəllim hazırlığının təkmilləşdirilməsinin əsas hərəkətverici amili hesab olunur ki, bunun da əsas yolu təhsilverənlərin sertifikatlaşdırılması prosesidir. Bu, sivil, mütərəqqi, şəffaf və obyektiv yoldur. Keçən əsrin 90-cı illərində maddi imkansızlıq səbəbindən peşəkar kişi müəllimlərin böyük əksəriyyəti məktəbdən getdi, onların yerini elmi-pedaqoji hazırlığı zəif olan, 8 aylıq ixtisasdəyişmə kursları bitirən, sonralar özünü doğrultmayaraq ləğv edilən özəl “institutlar”ın, “kolleclər”in və respublikadan kənarda institut bitirmələri haqqında diplomları olan “məzunlar” tutdular. Onların ixtisas biliyi, metodiki hazırlığı, müasir təlim texnologiyalarına bələdliliyi və İKT bacarıqları dövrün tələblərinə adekvat deyil.

Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşması müəllimin akademik bacarığından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır”.

### “Diaqnostik qiymətləndirmə mühüm hərəkatın - sertifikatlaşdırmanın başlanmasına səbəb oldu”

Fərrux Rüstəmovun sözlərinə görə, ümumi təhsil müəssisələrində işləyən müəllimlərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi və əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə onların bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi təhsilverənlərin sertifikatlaşdırılması prosesinin vacib və zəruri olduğunu göstərmişdi: “Beləliklə, diaqnostik qiymətləndirmə təhsil islahatlarında vacib komponent kimi xeyli dəyişikliyə səbəb olmaqla bu sahədə mühüm hərəkatın - sertifikatlaşdırmanın başlanmasına imkan yaratdı”.

### “Sertifikatlaşdırma xarici ölkələrin əksəriyyətində aparılır”

Təkcə Azərbaycanda deyil, xarici ölkələrin əksəriyyətində bu prosesin həyata keçirildiyini deyən kafedra müdiri beynəlxalq təcrübədə bunun necə reallaşdırıldığını da diqqətə çatdırıb:

“Məsələn, ABŞ-də müəllimlərin sertifikatlaşdırılması ştatlar səviyyəsində həyata keçirilir. Hər bir ştatın müəllimlərin sertifikatlaşdırılması üçün öz tələbləri və prosedurları var. Böyük Britaniyada müəllimlərin sertifikatlaşdırılması “Qualified Teacher Status” (QTS) proqramı vasitəsilə aparılır. Müəllimlər bu statusu əldə etmək üçün müəyyən tələblərə cavab verməli, qiymətləndirmədən keçməlidirlər. Almaniyada müəllimlərin sertifikatlaşdırılması federal ştatlar səviyyəsində, Fransada isə “Agregation” proqramı vasitəsilə həyata keçirilir. Bu, müəllimlərdən çətin imtahanlardan və qiymətləndirmələrdən keçməyi tələb edən nüfuzlu beynəlxalq sertifikatdır. Kanadada da müəllimlərin sertifikatlaşdırılması vilayət səviyyəsində aparılır. Hər bir vilayətin müəllimlərin sertifikatlaşdırılması üçün öz tələbləri və prosedurları var”.

### Müəllimi öyrənməyə və öyrətməyə təhrik edən ən yaxşı yol

Fərrux Rüstəmov qeyd edib ki, sertifakatlaşdırma prosesi müəllimi öz üzərində işləməyə, yeniliyə açıq olmağa, öyrətməyə və öyrənməyə təhrik edən ən yaxşı yoldur.

“Peşəkarlığını artırmayan müəllimlərdə özünə və şagirdlərinə qarşı subyektiv münasibət formlaşır, onlar pedaqoji fəaliyyəti ağır yük hesab edirlər. Öz sahəsi üzrə bilik və bacarıqlarını daim yeniləşdirməyən, peşəkar inkişaf kurslarında, seminarlarda, konfranslarda, treninqlərdə iştirak etməyən, həmkarları ilə təcrübə və ideya mübadiləsi aparmayan, yeni metod və texnologiyalardan xəbərsiz olan, innovativ tədris yanaşmalarından istifadə etməklə dərslərini daha effektiv və cəlbedici qurmağı bacarmayan, ünsiyyət, empatiya və liderlik bacarıqlarını inkişaf etdirməyən, şagirdlərinə dəstəkləyici və məhsuldar öyrənmə mühiti yaratmayan, öz güclü və zəif tərəflərini müəyyən etməyi və gələcək inkişaf üçün planlar hazırlamağı bacarmayan müəllimlərin məktəbdən - tədrisdən getməsinin sivil yolu sertifikatlaşdırmadan keçir. İnsan resurslarının yeniləşdirilməsi məktəbdə yeni mühitin yaradılmasını şərtləndirməklə yanaşı, tədrisə, müəllim-şagird münasibətinə yeni nəfəs verir”.

### “Harada millətin, dövlətin gələcəyi məsələsi var, orada ümumi mənafeni şəxsi mənafeyə qurban vermək olmaz”

Fərrux Rüstəmov 3 ilə yaxın bir müddətdə aparılan sertfikatlaşdırmanın nəticələrinə toxunaraq bu prosesə yeni başlayanda haqsız tənqidlər, müxtəlif yanaşmalar, heç bir əsası olmayan ittihamların çox olduğunu yada salıb:

“Sertifikatlaşdırma prosesi ibtidai sinif müəllimlərindən başlamışdı. Çünki öz işinin öhdəsindən gəlməkdə çətinlik çəkən xeyli ibtidai sinif müəllimləri var idi. Sertifikatlaşdırmanın nəticəsi olaraq imtahanda uğur qazana bilməyən müəllimlərin əmək müqaviləsinə xitam verildi. Əməyin keyfiyyət meyarları əsasında qiymətləndirilməsinə başlanıldı. Hətta sertifikatlaşmadan keçməyən, sosial baxımdan təminata ehtiyacı olanların sosial vəziyyəti də bu prosesi əngəlləyə bilmədi. Harada millətin, dövlətin gələcəyi məsələsi var, orada ümumi mənafeni şəxsi mənafeyə qurban vermək olmaz”.

Professor onu da əlavə edib ki, sertifikatlaşmadan uğurla keçən müəllimlərin əməkhaqqılarının artırılması bu işə əlavə stimul verib.

“Sertifikatlaşma ilə bağlı fənn müəllimləri arasında ciddi gərginlik hiss edilmir. 3 ilə yaxın səmərəli təcrübə onlarda bu imtahanlara inam yaradıb. Bütövlükdə düşünürəm ki, müəllimlərimizin sertifikatlaşdırılma prosesində uğur qazanması onların şəxsi keyfiyyətlərindən, müstəqil işləmək bacarığından, düşüncə tərzindən, yeniliyə nə qədər açıq olmasından asılıdır. Qarşıdan gələn sertifikatlaşdırmada iştirak edəcək müəllimlərimizə uğurlar arzulayıram”.

## Ənvər Abbasov: Sertifikatlaşdırma müasir təhsili simvolizə edən mühüm atributa çevrilib



**“Müəllimlərin sertifikatlaşdırılması prosesi, ilk növbədə, pedaqoji kadr potensialı haqqında doğru və düzgün fikrin formalaşdırılması ilə seçilir, cəmiyyətdə konkret olaraq təhsil sahəsindəki kadrların keyfiyyəti haqqında əsaslı bir qənaətə gəlməyə imkan verir”.**

Bu fikirləri “Azərbaycan müəllimi”nə Bakı Slavyan Universitetinin prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Ənvər Abbasov deyib.

O bildirib ki, müəllimlik arzusunda olanlar bilməlidirlər ki, zahirən daha kütləvi xarakter almış və cəmiyyətin formalaşmasında əvəzsiz rolu olan bir peşə barəsində düşünürlər.

“Onlar bu yolda gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq kimi çox məsul bir fəaliyyəti yerinə yetirirlər. Bu mənada belə bir peşə sahibinin dəyərləndirilməsi, sertifikatlaşdırılması da son dərəcə diqqət və həssaslıq, bir yanaşma tərzi, qiymətləndirmə fəaliyyəti tələb edir. Həm də bu tələblər çərçivəsində yumşaq bacarıqlara söykənən bir yanaşma tərzinin olmasını zəruri tələb kimi qarşıya qoyur”.

Prorektorun sözlərinə görə, bu həm də o deməkdir ki, sertifikatlaşdırma prosesi nə qədər sərt görünsə də, əslində müəllimin rahat və sərbəst fəaliyyət mühitinə çevrilməklə onu uğurlu fəaliyyətə sövq edir:

“Artıq üç ilə yaxın müddət ərzində respublikamızda belə bir sertifikatlaşdırma mühitinin formalaşdığı aydın şəkildə görünür. Müəllimlərimiz bu prosesdə məqsədli iştirak edərək öz nəticələrinin yüksək olması üçün mübarizə aparırlar. Onlar, həmçinin özlərinin uğurlu nəticələrindən fəxrlə danışır, cəmiyyət qarşısında hesabat verirlər. Digərləri isə öz nəticələrinin yüksək olması üçün hazırlıq fəaliyyətlərini davam etdirirlər”.

Ənvər Abbasov onu da qeyd edib ki, sertifikatlaşdırma həm də kadrların keyfiyyət potensialını meydana çıxarmaqla onlarda daha səmərəli iş görmək, təhsil sahəsindəki uğurlarımızı artırmaq üçün əminlik yaradır.

“Hər şeydən əlavə, Azərbaycan təhsilində olan nailliyyətlərin fonunda uğurlarımız dəstəklənir. Onun necə, hansı istiqamətlərdə inkişaf etdirilməsi qənaətləri barədə praktik əhəmiyyət daşıyan fikirlər formalaşır. Həmçinin əvvəlcədən müəyyən olunmuş proqnozlar əsasında fəaliyyətləri müəyyən etmək olur. Bu prosesin, eyni zamanda pedaqoji kadrların inkişafını ardıcıl və sistemli olaraq izləmək, dəstəkləyici fəaliyyətlərlə təmin etmək imkanı yaradır. Nəyə görə bizə müəllimlərin sertifikatlaşdırılması lazımdır? - sualını belə cavablandırmaq istərdim. Pedaqoji kadrların inkişafında keyfiyyət təminatı xüsusi parametrdir. Bunun üçün səviyyələrin müəyyən edilməsində sertifikatlaşdırma bir vasitə olaraq özünün əhəmiyyətini saxlayır. Pedaqoji kadrların inkişaf dinamikasının müəyyənləşdirilməsinə imkan yaradır. 3-cü ildir ki, müəllimlərin sertifikatlaşdırılması prosesi gedir. Müşahidələr və əldə olunan nəticələr də onu göstərir ki, sertifikatlaşdırma artıq özünün stimullaşdırıcı xarakterinə görə müasir təhsilə təkan verən, onu simvolizə edən mühüm atributa çevrilib. Və belə bir mühüm prosesi təkmilləşdirərək, daha da inkişaf etdirmək lazımdır”.

Samirə KƏRİMOVA

# İctimai nəzarət iştirakçılıq



## Hikmət Əlizadə: “Düşünürəm ki, ictimaiyyət nümayəndələri İctimai Şuranın üzvləri ilə görüşlərdə daha səmimi olacaqlar”

*Məlum olduğu kimi, bu günlərdə Elm və Təhsil Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib. Şuranın yeni tərkibi formalaşıb. İctimai Şuranın sədri pedaqogika üzrə elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru Hikmət Əlizadə seçilib. Əsas məqsədi elm və təhsil sahəsində ictimai nəzarəti həyata keçirmək, Elm və Təhsil Naziriyinin fəaliyyətində ictimai iştirakçılığı təşviq etmək olan İctima Şuranın yeni dönəmdəki fəaliyyəti, hədəfləri və görəcəyi işlər barəsində Şuranın sədri Hikmət Əlizadə “Azərbaycan müəllimi” qəzetinə müsahibə verib. Həmin müsahibəni oxucularımıza təqdim edirik.*

*– Hikmət müəllim, öncə sizi İctimai Şuranın sədri seçilməyiniz münasibəti ilə təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayırıq.*

– Səmimi təbrik üçün çox sağ olun. Mən qırx ildən artıqdır ki, Bakı Dövlət Universitetində pedaqogika fənnini tədris edirəm. Pedaqogika təhsil haqqında elmdir. Bu konteksdən yanaşanda ötən illər ərzində həm müəllim, həm də təhsilimizin təəssübkeşi kimi Azərbaycan təhsilinin, elminin daha da inkişaf etməsi üçün var qüvvəmlə çalışmışam. İndi isə İctimai Şuranın sədri kimi mənim daha geniş arealda Azərbaycan təhsilinin inkişafına xidmət etməyim üçün şərait yaranıb. Buna görə də İctimai Şuraya sədr seçilməyim üçün mənə etimad göstərən hər bir şəxsə dərin minnətdarlığımı bildirməyi özümə borc hesab edirəm.

### “Nəzarətedici və informasiyaverici funksiya”

*– Uzun illərdir təhsil sahəsində fəaliyyət göstərirsiniz. Təhsilimizdə gedən əsaslı dəyişikliklərlə, tətbiq edilən yeniliklərlə bağlı məlumatlısınız. Təhsil eksperti kimi hər zaman müxtəlif məsələlər haqqında istər mətbuatda, istərsə də müəyyən dairələrdə fikirlərinizi bildirmisiniz. Sizdən rəhbərlik edəcəyiniz İctimai Şuranın məram və fəaliyyət istiqamətləri barədə bir qədər məlumat verməyinizi xahiş edirik.*

– İlk olaraq deyim ki, İctimai Şuralar Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin demokratik idarəedilməsi siyasətinin əsasında yaradılmış qurumdur. Bilirsiniz ki, ölkəmizdə artıq müxtəlif dövlət qurumlarında İctimai Şuralar fəaliyyət göstərir.

Təhsil sahəsində İctimai Şuraya üçüncü dəfədir seçkilər keçirilib. Birinci dəfə Şuraya professor Şahlar Əsgərov sədr seçilmişdi. O, İctimai Şuranın fəaliyyətinin özünəməxsus adət-ənənələrini yaratdı. Sonrakı dönəmdə Günel Səfərova bu vəzifəyə seçildi. Rəhbərliyi dönəmində Günel xanım Şuranın fəaliyyətində yaranmış adət-ənənələri günün tələbləri səviyyəsində müasirləşdirdi. Buna görə də İctimai Şuraya rəhbərlik etmiş hər iki şəxsə dərin minnətdarlığımı bildirirəm. Onu deyim ki, İctimai Şuranın fəaliyyəti çoxşaxəlidir. Onun fəaliyyət sahəsi nəzarətedici və informasiyaverici funksiya üzərində köklənmişdir.

Bu gün Elm və Təhsil Nazirliyində gənc kadrlardan ibarət olan gözəl komanda formalaşmışdır. Təbii ki, bu komandanın yaranmasında elm və təhsil naziri Emin Əmrullayevin böyük əməyi vardır. Onun rəhbərliyi ilə Azərbaycan təhsilində həm keyfiyyət, həm də kəmiyyət baxımından mühüm dəyişikliklər həyata keçirilir. Gözümüzün qarşısında təhsil sistemimiz rəqəmsallaşır. Bu, təhsil sahəsində obyektivlik, şəffaflıq, humanizm, demokratikləşmə kimi prinsiplərin bərqərar olmasının nəticəsidir.

Təhsil sahəsi bütün ölkəni əhatə edir. Deməli təhsilimizin inkişafı, islahatların uğurla həyata keçirilməsi, yeniliklərin vətəndaş hüququ qazanması təhsil sahəsində çalışan bütün insanların fəaliyyətindən asılıdır. Bu istiqamətdə təhsil sahəsində nəzarət funksiyasının yaradılması zəruridir. Təbii ki, bu işə son dövrlərdə yaradılmış dövlət agentlikləri və regional təhsil idarələri, o cümlədən Bakı Şəhəri üzrə Təhsil İdarəsi nəzarət edir. Lakin onların nəzarəti inzibati məzmun daşıyır. Nəzarətin daha obyektiv məzmun kəsb etməsi üçün İctimai Şura olaraq yerlərdə təhsil istiqamətində yeniliklərin necə həyata keçirilməsi, normativ sənədlərin tələblərinə necə riayət edilməsi, təhsilin idarəedilməsi, təlimin keyfiyyətinin təmini və s. məsələlərlə bağlı monitorinqlər həyata keçirməyi məqsədəuyğun hesab edirik. Bununla əlaqədar olaraq yerlərdə ictimai dinləmələrin təşkil edilməsi də bizim fəaliyyətimizin əsas istiqamətlərindən biridir. Bu dinləmələr Elm və Təhsil Nazirliyi ilə ictimaiyyət arasında “körpü” yaratmaq məqsədi daşıyır və ictimaiyyətin fikirlərinin adıçəkilən nazirliyin müvafiq qurumlarına çatdırılmasını təmin edir. Bununla yanaşı, İctimai Şura üzvləri öz iclaslarında ictimaiyyətin qaldırdığı müxtəlif məsələləri müzakirə edib təkliflər verə, təhsilin inkişafı istiqamətində fikirlərini kütləvi informasiya vasitələrində bölüşə bilər. Deyilən bu işlər böyük həcmlidir və İctimai Şura üzvləri bu taleyüklü məsələləri həyata keçirməklə təhsil təəssübkeşi kimi xalqın qarşısında öz vətəndaşlıq borclarını ödəyə bilərlər.

> *Azərbaycan təhsilində həm keyfiyyət, həm də kəmiyyət baxımından böyük dəyişikliklər həyata keçirilir. Gözümüzün qarşısında təhsil sistemimiz rəqəmsallaşır. Bu, təhsil sahəsində obyektivlik, şəffaflıq, humanizm, demokratikləşmə kimi prinsiplərin bərqərar olmasının nəticəsidir.*

### “İctimai dinləmələr islahatların gedişinin və vəziyyətinin öyrənilməsi baxımından vacib məsələdir”

*– İctimai Şuranın əsas məqsədi elm və təhsil sahəsində tctimai nəzarəti həyata keçirməklə yanaşı, eyni zamanda Elm və Təhsil Nazirliyinin fəaliyyətində ictimai iştirakçılığı təşviq etməkdir. Bununla bağlı nə kimi işlərin görülməsi nəzərdə tutulub?*

– İctimaiyyətlə əlaqə İctimai Şuranın əsas fəaliyyət sahələrindən biridir. Onu da vurğulayım ki, İctimai Şura üzvlərinin Azərbaycanın müxtəlif regionlarında ictimai dinləmələr həyata keçirməsi ilə əlaqədar artıq müsbət təcrübə toplanmışdır. Təbii ki, zaman və məkan kontekstində bu, bir sıra çətinliklərlə müşayiət olunur. Lakin qeyd etdiyim kimi, ictimai dinləmələr aparılan islahatların gedişinin və vəziyyətinin öyrənilməsi baxımından olduqca vacib məsələdir. Bu dinləmələrdə İctimai Şura üzvlərinin yerlərdə vəziyyətini öyrənmək, nöqsanları üzə çıxarmaq, maarifləndirmə işlərini həyata keçirmək və əldə olunan qənaətləri Elm və Təhsil Nazirliyinin müvafiq qurumları ilə müzakirə etmək xüsusi önəm kəsb edir.

### “Çatışmazlıqların olması nöqsan deyil, onu aradan qaldırmamaq nöqsandır”

*– Gəlin etiraf edək ki, təhsilimizdə uğurlarla yanaşı, bəzən müəyyən problemlər də olur. İctimai Şura bu məsələlərin tənzimlənməsində nə kimi tədbirlər həyata keçirəcək?*

– Bilirsiniz, təhsil sahəsində həyata keçirilən işlər bütün ölkə ərazisini əhatə edir. Bu işlərin reallaşmasında çoxlu sayda insanlar – təhsili idarəedənlər, təhsil işçiləri, müəllimlər, valideynlər və s. iştirak edirlər. Təəssüf ki, onların hamısı baş verən dəyişiklikləri birmənalı başa düşmür və ya düzgün münasibət bəsləmir, ya da hər hansı bir məsələni həyata keçirərkən onu istənilən səviyyədə çatdıra bilmirlər. Bunun nəticəsində müəyyən problemlər meydana gəlir. Əslində, iş olan yerdə problem olmalıdır. Çatışmazlıqların olması nöqsan deyil, onu aradan qaldırmamaq nöqsandır. Qarşıya çıxan problemləri aradan qaldırmaq üçün əvvəlcə onları öyrənmək lazımdır. İctimai dinləmələrin keçirilməsi bu müstəvidə mühüm aktuallıq kəsb edir. İnzibati idarəetmə strukturlarının nümayəndələri ilə görüşlərdə təhsil subyektləri öz çətinliklərini deməkdən çəkinirlər. Düşünürəm ki, ictimaiyyət nümayəndələri İctimai Şuranın üzvləri ilə görüşlərdə daha səmimi olacaqlar.

### “Problemin həll yollarını tapmaq vacib məsələdir”

*– İctimai Şuranın təhsil müəssisələri ilə əlaqələrini necə görürsünüz?*

– İctimai Şura üzvlərinin orta, peşə və ali təhsil müəssisələrində, həm idarəedənlər, müəllimlər, eyni zamanda təhsilalanlarla görüşlər keçirmələri, monitorinqlər aparmaları planlaşdırılır. Bu əlaqələri həm fərdi, həm də kollektiv formada keçirməsi müsbət təcrübələrdən biridir. Hansı formada olursa-olsun, fikrimizcə, İctimai Şuranın üzvləri söhbətlərin səmimi alınması üçün deyilən fikirlərin anonimliyini qorumağı öhdəliyinə götürməli və bunu ictimaiyyət bilməlidir.

Düşünürük ki, problemin kim tərəfindən yaradıldığı və ya qaldırılması əsas deyil, onu həll etməyin yollarını tapmaq vacibdir. Bu baxımdan İctimai Şura üzvləri görüşlərin səmimi alınmasına və obyektiv məlumatlar əldə etməyə çalışmalıdırlar. Təbii ki, vacib məsələlərin Elm və Təhsil Nazirliyinin müvafiq qurumları ilə müzakirəsi problemin aradan qaldırılmasının əsas yoludur.

### Universitetlərdə imtahanların, orta məktəblərdə isə qiymətləndirmə prosesinin monitorinqinın təşkili maraqlı olardı

*-İctimai Şuranın ilk görəcəyi iş nə olacaq?*

– Hazırda tədris ilinin başa çatması ilə bağlı yekun işlər həyata keçirilir. Ali və orta ixtisas təhsili məktəblərində imtahan sessiyası başlayıb, orta təhsil məktəblərində isə sonuncu dərslər və böyük summativ qiymətləndirmə həyata keçirilir. Düşünürəm ki, ali məktəblərdə imtahanların, orta məktəblərdə isə böyük summativ qiymətləndirmə prosesinin monitorinqinin təşkili maraqlı olardı. Bunun üçün bir neçə təhsil müəssisəsinə getməyi planlaşdırırıq. Bundan əlavə, sertifikatlaşmada iştirak etməyə hazırlaşan müəllimlərin İctimai Şura üzvləri ilə görüşməsi üçün də təkliflər almışıq. Onlarla da görüşüb söhbət etməyi vacib məsələlərdən biri hesab edirik.

*– Hikmət müəllim dediklərinizdən məlum olur ki, İctimai Şura geniş fəaliyyət istiqamətlərinə malikdir. Düşünürük ki, qeyd etdiyiniz məsələlərin reallaşdırılması ölkəmizdə təhsilin inkişafına böyük töhfə verəcəkdir. Bu işdə sizə və İctimai Şuranın bütün üzvlərinə uğurlar arzu edirik.*

– Mən də öz növbəmdə İctimai Şuranın işinə diqqət və qayğı ilə yanaşdığınıza görə sizə minnətdarlığımı bildirirəm.

**Samirə KƏRİMOVA**

# 4 QIZIL, 2 GÜMÜŞ, 1 BÜRÜNC

## Məktəblilərimiz Əl-Xarəzmi Beynəlxalq Riyaziyyat Olimpiadasında uğurla çıxış ediblər




26-31 may tarixlərində Özbəkistanda iki mərhələdən ibarət Əl-Xarəzmi Beynəlxalq Riyaziyyat Olimpiadası təşkil edilib. Olimpiadada Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistandan 135 şagird iştirak edib.

Ölkəmiz sözügedən olimpiadada 2 komanda ilə uğurla təmsil olunub. Belə ki, Kimya-biologiya təmayüllü Respublika liseyinin 9-cu sinif şagirdi Rəfiqə Qəmbərova, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin 9-cu sinif şagirdi Zəhra İbişova, 287 nömrəli “Zəkalar”’ liseyinin 8-ci sinif şagirdi Fərhad İskəndər, Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın 9-cu sinif şagirdi Davud Tarverdili qızıl, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 9-cu sinif şagirdi Fərhad Hüseynov, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin 8-ci sinif şagirdi Hüseyn Zeynalov gümüş, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 9-cu sinif şagirdi Tural Müseyibzadə isə bürünc medal qazanıb.

Şagirdlərimizi təbrik edir və uğurlarının davamlı olmasını arzu edirik!

# Daha 760 nəfərin diplomu tanınıb




Təhsildə Keyfiyyət Təminatı Agentliyi may ayı üçün tanınma üzrə müraciətlərin statistikasını açıqlayıb. Belə ki, may ayı üzrə 815 müraciətçinin 760-ı barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 55 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb edilən normativdən az olması səbəbi ilə 42, ekvivalenti olmayan ixtisas səbəbi ilə 6, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbi ilə 4, dövlət nümunəli olmayan diplom səbəbi ilə 2, təhsil forması səbəbi ilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Rusiyadan 264, Ukraynadan 243, Türkiyədən 118, Belarusdan 63, Gürcüstandan 29, Birləşmiş Krallıqdan 28, Çindən 9, Macarıstandan 9, Polşadan 6, Qazaxıstandan 6, ABŞ-dən 5, İtaliyadan 5, Niderlanddan 5, Çexiyadan 3, Almaniyadan 2, Fransadan 2, Özbəkistandan 2, Türkmənistandan 2, Avstraliya İttifaqından 1, Avstriyadan 1, Banqladeşdən 1, Belçikadan 1, Estoniyadan 1, İrandan 1, İspaniyadan 1, İsveçdən 1, İsveçrədən 1, Kiprdən 1, Koreyadan 1, Litvadan 1, Norveçdən 1, Qırğızıstandan 1 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 197, yanğın təhlükəsizliyi mühəndisliyi üzrə 73, həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi üzrə 61, maliyyə üzrə 38, tibb üzrə 32 müraciətçi qeydə alınıb.

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

| № | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | İnstrumental ifaçılıq | Kafedra müdiri | 1 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan: Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39**
**Telefon: 599-00-54 (daxili-100)**

**REKTORLUQ**



## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan nəşriyyatı" MMC, 9-cu mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 12348 **Sifariş** 1274
**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır







**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Şəmsizadə Kələşi Melisa Behnam qızına verilmiş E-201572 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kimya-biologiya təmayüllü Respublika Liseyini** 2002-ci ildə bitirmiş Babayev Cavid Seyidbaba oğluna verilmiş A-589679 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Daş Salahlı kənd 1 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş Nəsibov Ayaz Rasim oğluna verilmiş A-941430 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xızı rayon** Yeni Yaşma kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Xasanova Dilarə Balısbəyovnaya verilmiş A-060126 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Padar kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Əhmədova Bacıxanım Musa qızına verilmiş 67 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Qarayeri qəsəbə 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Sadıqova Mədinə Səməndər qızına verilmiş B-251152 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1993-cü ildə Həsənov İftixar Nadir oğluna verilmiş ДВ-839034 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 251 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Qulu-zadə Zaur Orxan oğluna verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 34 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Muradova Nərgiz Umud qızına verilmiş B-607080 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Mirzəyev Əli Fariz oğluna verilmiş C-718665 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Siyaku kənd tam orta məktəbin VIII (IX) sinfini 1979-cu ildə bitirmiş İrşadova (Əliyeva) Şahimə Xanoğlan qızına verilmiş 886469 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 3 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Ağayeva (Mürsəlova) Tünzalə Əkbər qızına verilmiş A-565522 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 4 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Hacıyev Cavid Əsəd oğluna verilmiş E-431084 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Əliyev Sadiq Əhmədağa oğluna verilmiş C-029731 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Ə.Əliyev adına Sumqayıt tibb məktəbi** tərəfindən 2000-ci ildə Bayramova (İsmayılova) Aytən Məhəmməd qızına verilmiş AB-II-067553 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyeva (Süleymanova) Rumiyə Teymur qızına verilmiş A-358808 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**152 nömrəli OTPM** (Şirvan Peşə Liseyi) tərəfindən 1993-cü ildə Əliyev Zaur Nasif oğluna verilmiş Г-412353 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Əli Bayramlı şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Fərzəliyeva Günay Dadaş qızına verilmiş B-233243 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Mollagüllər kənd ümumi orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Vəliyeva (Abdullayeva) Roza Qara qızına verilmiş A-362384 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Hacıyev Kamran Bəxtiyar oğluna verilmiş 269177 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 169 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Novruzova Nərmin Rəhman qızına verilmiş C-170687 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2019-cu ildə Novruzova Nərmin Rəhman qızına verilmiş A-116229 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2011-ci ldə Abbasova Vəfa Nəsib qızına verilmiş B-199757 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Qarabağlar kənd 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Məmmədov Ramik Qvami oğluna verilmiş 210033 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 80 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əsgərov Məhəmməd Ramin oğluna verilmiş E-145559 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam Musiqi Kolleci** tərəfindən 2018-ci ildə Makfuri Nərgiz Tofiq qızına verilmiş AA-107575 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Mehdiyeva İlahə Kamil qızına verilmiş B-048933 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 279 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əzizov Şiroğlan Şirağa oğluna verilmiş 1403 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Əliyeva Sona Samir qızına verilmiş E-561813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Çiçi kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş İskəndərova (Novruzova) Günay Lazim qızına verilmiş A-574734 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Dəmirçilər kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Əliyev Sərdar Kamal oğluna verilmiş 185211 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** Humanitar və Təbiət fənlər təmayüllü məktəb-liseyi 2017-ci ildə bitirmiş Abdalov Pərvin Ramiz oğluna verilmiş A-529564 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Kərimov Kənan Telman oğluna verilmiş A-330652 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əzimova Aidə Zakir qızına verilmiş 750635 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 47 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Namazova Esmira Zəlimxan qızına verilmiş A-309723 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt 10 nömrəli Peşə Liseyi** (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2013-cü ildə Əliyev Qail Əlivahid oğluna verilmiş A-034993 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Əlinəzərli kənd 2 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Əliyeva Aytəkin Əsəd qızına verilmiş A-018757 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Arus kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Qasımova Şəmsiyyə Savadxan qızına verilmiş A-039694 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdindəki Sənaye Müəssisələri İşçilərinin İxtisasartırma və Yenidənhazırlanma İnstitutu** tərəfindən 2005-ci ildə Rəhimov Murad Arif oğluna verilmiş YB-003707 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Ovculu kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Kərimova Qiyafət Əlisgəndər qızına verilmiş A-542758 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1996-cı ildə Rəhimov Murad Arif oğluna verilmiş AB-I-009830 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 233 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Babaxanov Hüseyn Oqtay oğluna verilmiş B-497694 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2002-ci ildə Babayev Sahib Əlibaba oğluna verilmiş A-116072 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 26 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Kazımova Günay Balabəy qızına verilmiş A-696665 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş İsgəndərzadə Rövşən Vidadi oğluna verilmiş E-020194 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**6 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 1998-ci ildə Orucəliyev Ramil Fərhad oğluna verilmiş AB-001931 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik qəsəbə** 1 nömrəli tam orta məktəbi (indiki Lerik şəhər 1 nömrəli texniki fənlər təmayüllü məktəb-liseyi) 2006-cı ildə bitirmiş Abdullayev Oruc Helman oğluna verilmiş B-303552 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Əlili İskəndər Elçin oğluna verilmiş A-468630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Çərçiboğan kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Qurbanov Nural Mehman oğluna verilmiş E-543372 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş İsgəndərov Sair Xalid oğluna verilmiş A-129282 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba Tibb Kolleci** tərəfindən 2019-cu ildə Bayramova Nərgiz Malik qızına verilmiş AA-122657 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Deqədi kənd əsas məktəbin IX sinfini 2011-ci ildə bitirmiş İbrahimova Gülşən Hüseynağa qızına verilmiş A-118217 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 93 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Ağayev İlkin Əzizağa oğluna verilmiş 488516 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 282 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Vəliyev Kənan Nizami oğluna verilmiş A-364691 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Topalhəsənli kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Məmmədova Ruqiyyə Şirməmməd qızına verilmiş 229722 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Beyi kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Mirzəməmmədova Aydan Mirzə qızına verilmiş B-633195 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömərli tam orta məktəbi 2022-ci ildə bitirmiş Mirzəyev Azad Sahil oğluna verilmiş E-518050 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Balayeva (Nadirova) Sevda İsməmməd qızına verilmiş A-715337 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Köhünlü kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Abdullayeva (Bağırova) Rəfiqə Ələkbər qızına verilmiş AK-601332 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən (Şəki filialı) 2021-ci ildə Xəlilova Sevinc Müşfiq qızına verilmiş C-121946 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Cəfərova Aynurə Fazil qızına verilmiş A-283931 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 8 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Novruzov Sunay Yusif oğluna verilmiş A-000321 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Qaradeyin kənd tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Həsənova Rəvanə Zöhrab qızına verilmiş 075695 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Alar kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Bayramzadə Abdulla Əlisafa oğluna verilmiş E-377952 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 52 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Vəliyev Tunar Elçin oğluna verilmiş E-564712 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Boradigah qəsəbə 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əhmədova Aysel Nəsrəddin qızına verilmiş A-510963 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 162 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Qafarova (Babayeva) Tükəz Amil qızına verilmiş A-517497 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 29 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Nəsibov Vüqar Natiq oğluna verilmiş B-693441 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əliyev Qalib Qabil oğluna verilmiş 153 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası** tərəfindən 2021-ci ildə Aslanova Çinarə Fikrət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əliyev Cahid Səda oğluna verilmiş A-296180 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Kürdmaşı kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Qəmbərova Zəminə Arif qızına verilmiş 002149 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2011-ci ildə Mustafazadə Aytən Mustafa qızına verilmiş BB-II-115408 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Piriyev Vəfadar Namiq oğluna verilmiş B-099876 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 2004-cü ildə Nağıyev Anar Qüdrət oğluna verilmiş B-018961 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Abbaszadə Cavid Xanlar oğluna verilmiş E-208203 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.